## MUZEYŞÜNASLIQ

UOT 069

**Tərana Abdullayeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin doktorantı**
*Az-1065, Bakı, İnşaatçılar prospekti 39*
*E-mail:* rahimi57@mail.ru

# HÜSEYN XAN MÜŞTAQ: ZÜLMKAR HÖKMDAR, YOXSA İNCƏ RUHLU ŞAİR, MƏDƏNİYYƏT HAMİSİ (Tarixi yanlışlıqlara son)

**Xülasə**: Təqdim edilən bu məqalədə, müəllif tərəfindən, Azərbaycan milli tarixin orta əsirlərə təsadüf ədən Şəki xanlığından, onun hökmdarı Hüseyn xanın yalnız zalım bir başçı olmadığını, onun mədəniyyətə və incəsənətə olan diqqət va qayğısını tədqiq etmişdir. Bu istiqamətdə araşdırmaçı nəyin ki, tarixi mənbələrə, hətda nadir milli ədəbiyyat nümunələrindən də məharətlə yararlanmışdı.

**Açar sözlər:** feodal üsuli-idarəsi, Şəki xanı, şair, poetik məclis, mədəniyyət hamisi, divar rəsmləri, rəhimli xan, Nuxa qalası, süi-qəsd, milli-mənəvi dəyərlər, Salman Mümtaz, M.V. Vidadi, “Müsibətnamə” poeması, müxəmməs, xanlıqlararası əlaqələr.

Şəki xanlığına 22 il rəhbərlik etmiş (1758-1780) Hüseyn xan Müştaq müstəqil Şəki xanlığının əsasını qoyan Hacı Çələbinin nəvəsi, Həsən Ağanın oğlu olmuşdur. Taleyi kəm olan bu mədəniyyət sevər insan haqqında Azərbaycan tarixşünaslığında və folklorunda yayılan qeyri-elmi məzmun kəsb edən məlumatlar Hüseyn xan Müştaqın kimliyini qara örtüyə almışdır. Əslində mədəniyyət hamisi kimi tanınan bu tarixi şəxsiyyətin aydın şəxsiyyətinə kölgə salmaq istəyi onun mübarizələrlə dolu ömür yoluna dair məlumatın azlığından doğmuşdur. Azərbaycan mədəniyyətini dünyada tanıdan minlərlə abidələrimizdən biri olan Şəki Xan Sarayını 1762-ci ildə məhz Hüseyn xan Müştaq tikdirmişdi. Necə ola bilər ki, gözəllik aşiqi olan bir insan Şəki Xan Sarayı kimi möhtəşəm bir abidəni yaradan ustanın ölümünə fərman versin. Düzdür, saray mühiti, feodal psixologiyası, amirlik, xudpəsəndlik insanda mənfi xüsusiyyətlər formalaşdırmağa qadirdir. Digər tərəfdən bu fikrə təkan kimi düşünməliyik ki, uzun illər himayəsinə sığındığımız sovetizm dönəmi beynimizə xanlıq dövrünü istismarçı quruluş, feodal üsuli-idarəsi kimidiqtə edib. İstəsək də, istəməsək də, bilsək də, bilməsək də, xan, şah adı eşidən kimi gözlərimizin qarşısında despod, zülmkar bir obraz canlandırmışıq. Hələ vaxtilə dilimizin saflığı uğrunda mübarizə aparan, “vətəni, dili, qeyrəti” babalarımızdan bizə əmanət sayan ulu Xətainin də bədii irsinin öyrənilməsinə şah olduğu üçün sovet senzurası icazə verməmişdi.

Görəsən, Hüseyn xan Müştaq zalım, zülmkar xan olmuşdur, yoxsa incə ruhlu şair, mədəniyyət hamisi? Bu məsələyə aydınlıq gətirmək üçün birinci növbədə Məhəmmədhüseyn xanın özünə təxəllüs kimi seçdiyi “Müştaq” sözünün mənasına diqqət edək. “Müştaq” sözü ərəbcədən tərcümədə “şövqlü”, “həvəsli”, “arzulu” deməkdir. Fikrimizcə, feodal müharibələrinə aludə olan bir adam özünə bu cürtəxəllüs seçməzdi. Əksinə feodal pərakəndəliyindən bezən, yurdunun abadlaşdırılması arzuları ilə

yaşayıb, bu həsrəti qəlbində gəzdirən bir adam bu təxəllüsü götürər. Hüseyn xanın ağıl və biliyi, feodal müharibələrinə nifrəti onun nəsillərə yadigar qoyub getdiyi Xan Sarayının divar rəsmlərində də öz əksini tapıb. Hər halda düşünək ki, sarayda çalışan usta sifarişçinin, yəni Müştaqın xəbəri olmadan öz fantaziyası fövqündə divara heç bir şey işləyə bilməzdi. Bu barədə mütləq xana məlumat verməli idi. Adicə fikir verəndə görürük ki, divar rəsmlərindəki Müştaqın göstərişi ilə vurulmuş ornament və naxışlar onun mədəniyyət hamisi bir insan olduğunu təsdiqləyir. Sarayın ikinci mərtəbəsindəki xanın şəxsi iş otağında təsvir olunmuş əjdahalar ağızlarında od-alov yerinə gül-çiçəklərlə təsvir olunublar. Əjdaha adətən hakimiyyəti, gücü təmsil edir. Burada əjdahaların ağzında gül-çiçək olması onu əks etdirir ki, hökmdar güclü, qüvvətli, qüdrətli olduğu qədər də rəhimli və mərhəmətli olmalıdır. Görəsən, təsvirin bu cür verilməsində xanın rolu olmamışdırmı? Yaxud bu cür məntiq Hüseyn xan Müştaqın adilliyini, rəhmli və mərhəmətli olmasını göstərmirmi?

Təəssüf doğurucu hal odur ki, Hüseyn xan Müştaq haqqında qalan çox cüzi tarixi sənədlərdə o, intiqam həvəsli, cəsur sərkərdə, təmkinli diplomat, gənc və yorulub – usanmaz dövlət adamı kimi səciyyələndirilmiş, şair kimi o qədər də diqqətə çatdırılmamışdır. Ağrılı olsa da, deməliyik ki, Azərbaycan tarixşünaslığının yaradıcısı A. Bakıxanov da "Gülüstani-İrəm"əsərində Müştaqı "şücaətli", "hünərli" bir adam kimi öysə də, tarixçi tənbehi kimi onu rəhmsiz bir adam kimi də qələmə verməkdən çəkinməmişdir: "Hicri 1194-cü ildə (1779)Hacı Əbdülqadir, Hacı Çələbinin əmisi oğlu Hacı Rəsul bəy Hacı Şeyx Əli oğlunun köməkliyi ilə Ərəş məlikzadələri və Şəki əyanının ittifaqı ilə qəflətən Nuxa qalasına soxuldu. 22 il hökmranlıq sürməkdə olan Hüseyn xanı öldürüb hökumət bayrağını qaldırdı. Hüseyn xan hünərli, şücaətli, gözəl təbiətli və düzgün fikirli olmaqla bərabər, təbiətən rəhmsiz bir adam idi**"[1,s.194].** Abbasqulu ağa Bakıxanovun Hüseyn xan Müştağı rəhmsiz adlandırması belə Müştağın qeyri-insani xüsusiyyətə malik bir xan olmasını təsdiqləyə bilmir. Çünki feodal dünyasında baş verən taxt-tac hərisliyi davası atanın övlada, qardaşın qardaşa güzəşt etməməsi ilə bağlı tarixdə yetərincə faktlar vardır. Bəli, ömür yolu diktə edir ki, Müştaq da bu yolda qətllərə rəvac verib.Görəsən, bu xanın heç kəsə güzəştsizliyindən irəli gələn bir səbəb olub yoxsa, o, yalnız xain, xəbis, dostluqda sədaqətsiz, yaltaq, düşmənlə əlbir olan insanlar məğrur xanın qəzəbinə düçar olub qətlə yetiriliblər. Professor Ədalət Tahirzadə XIX əsrin nasiri İsmayıl bəy Qutqaşınlının əsərlərinə yazdığı "ön söz"də Salman Mümtaza ictinad edərək İsmayıl bəy Qutqaşınlının babası Kəblə Sultanın taleyi ilə bağlı çox maraqlı bir faktı nəzərimizə çatdıraraq yazır: "Qəbələ ağası Kəlbəli Sultan Hüseyn xan Müştaqla çox yaxın idi. Ancaq Hüseyn xan gələcək qatili əmisi Hacı Əbdülqadirlə düşmən olduqdan və Kəlbəli Sultan da onun əmisinə tərəfdar çıxdıqdan sonra bu yaxınlıq yağılığa çevrildi və sultan dustaq edildi. Xəyanəti ilə xanın qəzəbinə tuş gələn Qəbələ ağası Kəlbəli Sultan da öldürüldü"**[7, s.6]** Göründüyü kimi,"Hüseyn xan hakimiyyətə çox da rahat gəlməmiş, 1758-ci ildə Şəki xanlığının zəifləməsi və onun tərkibindəki Ərəş sultanlığının müstəqilliyə can atmasını görən Qazıqumux hökmdarı Məhəmməd doğmaca qızının əri olan Ağakişi xanı (Hüseyn xanın əmisi) xaincəsinə öldürtdürüb Şəkidə hakimiyyəti ələ keçirmişdi. Qazıqumux hökmdarının ədalətsiz idarəçiliyi Şəkidə üsyana səbəb oldu. Şəki bəylərinin köməyi ilə Şamaxıya qaçmış Hüseyn xan Qarabağ xanı Pənahəli xanın da dəstəyi ilə Qazıqumuxlu Məhəmməd xanın 40 günlük hakimiyyətinə son qoydu və taxta oturdu" **[ 8].**

Kərim ağa Fatehin yazdığına görə, "hədiyyələrlə Fətəli xan Əfşarın görüşünə gedən Hüseyn xanın Şəki vilayətinin əsl bəyzadəsi olduğunu bilən Fətəli onun Şəki xanı qalmasına razılıq verir**"[13,s.16].** Hüseyn xan həm Şəki xanlığının torpaqlarını qorumaq, həm də genişləndirmək üçün əlindən gələni əsirgəməmişdi. Fətəli xan Əfşarla münasibətləri ona öz hakimiyyətini qorumağa, qubalı Fətəli xanla əməkdaşlığı isə Şamaxı torpaqlarının önəmli hissəsini Şəki xanlığına qatmağa imkan vermişdi. Hüseyn xanı bir qurucu, incə diplomat kimi təqdir edən tarixçilər onun Xan Sarayını tikdirməsini bir dövlət adamının incə diplomatik gedişi kimi dəyərləndirmişdilər. Çünki o, (Hüseyn xan nəzərdə tutulur T.A) bir tərəfdən göz qabağında Şəkini abadlaşdırır, digər tərəfdən isə düşmənlərinə eşitdirirdi ki, baxın mən –Şəki xanı, heç kimin torpağına göz dikməmişəm və heç bir döyüşə, heç bir savaşa hazırlaşmıram. Bu vətənsevər, yurdsevər tarixi şəxsiyyət bu cür insani keyfiyyətlərinə görə paxıllığın qurbanı oldu. 1780-cı ildə Hüseyn xan əmisi Əbdülqadirin, Hacı Çələbinin əmisi oğlu Hacı Rəsul bəyin və Şəki əyanlarından ibarət bir qrupun süi qəsdi nəticəsində öldürüldü. Bu qanlı hadisə araşdırıcıların qeydlərində aşağıdakı kimi səciyyələndirilir: " Hadisə 1780-ci ilin avqustunda baş verir. Əbdülqadir xanın altmış nəfərədək dəstəsi gecə xəlvətcə qalaya daxil olur və saraya hücum edir. Bu vaxt saraya bitişik evdə - Müzəyyən (Qurğuşunlu) otaqda olan xan qapıları içəridən bağlayıb hücum edənlərlə atışmağa başlayır. Xanın yanında olan kiçik yaşlı oğlu Fətəli də tüfəngləri doldurmaqda atasına kömək edir. Bir neçə saatlıq atışmadan sonra xan ağır yaralanır. Qapını sındırıb xanı tuturlar. Onu bir həftə saxladıqdan və hansısa müqaviləyə imza atdırdıqdan sonra boğub öldürürlər**"[8].**Çox təəssüf ki, bu böyük qurucu və şücaət sahibinin gördüyü işlər, apardığı islahatlar tarixin pərdə arxasında qalıb, müasir gəncliyə Hüseyn xan

Müştaq zalım, qəddar xan kimi təbliğ olunur. Bu fikri bizə söyləməyə əsas verən müasir dərsliklərdə Şəki Xan Sarayı ilə bağlı yer alan rəvayətdir. Orta ümumtəhsil məktəblərinin VI sinif "Ədəbiyyat"**[12]** dərsliyində özünə yer alan yazıçı Sabir Əhmədovun qələmindən çıxmış "Xan sarayı" **[12, s.117-119]** mətni fikrimizcə, tariximizin, mədəniyyətimizin təbliğinə heç bir fayda gətirmir. Əksinə, xalqımızın milli-mənəvi dəyərlərinin dərindən təbliğinə ethiyacın artdığı müasir dövrdə düşmən dəyirmanına su tökür. Minlərlə xarici seyrçinin gözəlliyini izlədiyi xan sarayını inşa etdirən xanın ustanı öldürtməsinə dair aldığı məlumatla xalqımızın insanpərvərliyinə hansı dəyəri verə bilər? Vaxtilə Şərq xalqları arasında geniş yayılan, sənətin və sənətkarın təbliği məqsədilə dahi Nizami Gəncəvinin "Yeddi gözəl" əsərinin süjetində özünə yer alan "Hökmdar Neman və sənətkar Simnar" rəvayətini sənətsevər Şəki xanı Hüseyn xan Müştaqın adı ilə bağlamaq heç də tarixi həqiqət deyil. Digər tərəfdən düşünmək lazımdır ki, əgər memar xan tərəfindən öldürülmüşdürsə, onda zamanın sonrakı axarında interyer baxımından Şəki Xan Sarayına bənzər abidələrin müəllifi kimdir? Düzdür, tarixi həqiqət Müştaqşünasların qələmində qorunub saxlanılmışdır. Həyatını Azərbaycan ədəbiyyatının öyrənilməsinə həsr edib mükafatı sovet repressiyasının intiqam məngənəsi olan Salman Mümtaz 1925-ci ildə yazdığı "Hüseyn xan Müştaq" məqaləsi ilə bu həqiqəti bərpa etməyə çalışmışdır. Alimin aşağıdakı fikirləri Hüseyn xanın kimliyini ortaya qoymaq üçün böyük dəyər kəsb edir: "İyirmi iki il hökumətə rəhbərlik edə bilən Müştaq Şəki və Şirvan məmləkətlərini gözəl idarə etdiyindən özünə dolayı bir çox rəqib və düşmənlər qazanmışdı. Ən böyük düşməni əmisi Hacı Əbdülqadir xan idi ki, təlimatını Qarabağ xanı olan İbrahim xan və digərlərindən alırdı. Hacı Əbdülqadir xan tarixi-hicri 1194-də gecə Ərəş və Şəki bəyləri ilə gəlib öz dəstəsini qalanın dalında, dağ arasında gizlətmiş və günorta çağı divan ələçatı dağılarkən Məhəmməd Hüseyn xan Müştaqı öldürmüş və ev-eşiyini də mənimsəyərək özünü xan elan etdirmiş idi. Bu ürək yandırıcı hadisə bütün əhaliyə və baxüsus Müştaqı yaxından tanıyanlara fövqəladə təsiretmişdi"[10,s.101; 9].Ədəbiyyat tariximizdən bildiyimiz kimi, Hüseyn xan Müştaq XVIII əsrin qüdrətli şairləri olan Molla Vəli Vidadi və Molla Pənah Vaqiflə yaxından dostluq əlaqələri saxlamışdır. Mola Pənah Vaqif irsinin mükəmməl araşdırıcısı olmuş Araz Dadaşzadə bir sıra tarixi və ədəbi mətləbləri oxucusuna çatdırır: "Şəki xanlığı ilə Qarabağ xanlığı arasında əlaqələr o qədər də yaxşı deyildi. Lakin bu Müştaqla Vaqif arasındakı dostluğa maneçilik törətmirdi"[2,s.53]. Müştaqla Molla Pənah Vaqif dostluğunun sarsılmazlığını, sədaqətini ortaya qoyan digər maraqlı bir fakt Müştaqşünaslardan olan Hacı Seyid Əbdülhəmid Əfəndinin "Şəki xanları və onların nəsilləri" əsərində vermiş olduğu faktdır. Əbdülhəmid Əfəndi yazır: " Hüseyn xan Müştaq oğlu Məhəmmədhəsən xanı barışıq üçün Hacı xanın yanına göndəribmiş. O da Məhəmmədhəsən xanı tutdurub, İbrahim xanın yanına əmanət göndərib. İbrahim xan Məhəmmədhəsən xanı məxfidən gizlədib, köynəyini qana bulayıb, Hacı xana göndəribdir ki, qətl etdirmişəm**[13, s. 28-29; 4;].** Tarixçinin qeydlərindən aşağıdakı nəticəni çıxarmaq olar ki, Müştaqın oğlu Məhəmmədhəsən xanın sağ qalmasında əsas rolu Vaqif oynamışdır.O, İbrahim xanın nə qədər qəzəbinə tuş gəlsə də, dostluqda sədaqətini nümayiş etdirmiş, hətta Müştaq öldürüldükdən sonra onun oğlu Məhəmmədhəsənin taxta çıxarılmasında rol oynamışdır.

Son illərin ən müqtədir Müştaqşünaslarından biri XX – XXI əsr Şəki ədəbi mühitinin istedadlı qələm sahibi şair-tədqiqatçı Vaqif Aslandır.Tədqiqatçının uzun illərin tədqiqatı nəticəsində ərsəyə gətirib 2015-ci ildə nəşr etdirdiyi "Hüseyn xan Müştaq"**[1]** tarixi faciəsi Müştağın müsbət arealda şəxsiyyətini ortaya qoyan bir mənbədir. Əsərin mürəkkəb quruluş və məzmun xüsusiyyətlərini yüksək dəyərləndirən tarix elmləri doktoru, professor Kərim Şükürov yazır ki, "Vaqif Aslan öz əsərində Azərbaycan tarixi dramaturgiyasında formalaşmış ənənələrdən bəhrələnsə də, fərqli bir yol ilə gedib. Bəzi istisnalarla əsər mürəkkəb, lakin bitkin kompozisiyaya malikdir. Əsərdəki hadisələr bölümlər üzrə ayrı-ayrı səhnələr şəklində təsvir edilmiş, bölümlər isə iki böyük hissədə birləşdirilmişdir. Hər bir hissə beş bölümdən, hər bir bölüm isə dörd səhnədən ibarət olmaqla əsər cəmi iki hissə qırx səhnədən ibarətdir"**[17, s. 11 ].**Əsərin süjetinin aparıcı obrazı olan Müştaq bütün situasiyalarda el-obaya qayğılı, insana sevgili, dosta, qonağa sədaqət və məhəbbətli, şairə və sənətkara yüksək dəyər verən yaradıcı, poetik təbli bir tarixi şəxsiyyət kimi oxucunun və tamaşaçının gözləri qarşısında canlandırılır.

Hüseyn xan Müştağı gözəl mənəvi keyfiyyətlərə malik bir dövlət xadimi kimi təqdim etmək üçün əlimizdə olan əsas fakt onun poeziyasıdır. Poetik duyum, estetik ideal şəxsiyyətin əsas göstəricisidir ki, Müştaq bütün bu gözəl keyfiyyətləri özündə əks etdirən şəxsiyyət kimi tarixin səhifələrində qalıb. Onun sarayında keçirilən şeir məclisləri, bu məclislərdə oxunan orijinal şeirlər, xüsusilə onun dövrünün qüdrətli şairləri olan küngütlü Nəbiyə, şair Süleymana, Raciyə, Kəlbirli Rafeiyə, Ağcayazılı Hacı Məhəmməd Çələbi Əfəndi Zariyə, Molla Vəli Vidadiyə, Molla Pənah Vaqifə, şamaxılı Ağa Məsih Şirvaniyə olan səmimi sənəti hamilik münasibətləri ona vurulan "qəddar olub", "zalım olub" möhürünün saxta olduğunu diktə edir. Tədqiqatın ədəbi-mədəni istiqamətini nəzərə alıb şair Müştaqın qələminə mənsub olan şeir nümunələri ilə onun incə ruhunun müdafiəsi keşiyində durmaq istərdik. Məhəmmədhüseyn xan yazmış

olduğu şeirlərində “Müştaq”, yaxud “Müştaqi” təxəllüslərini işlədərək əsərlərini həm əruz vəznində, həmdə xalq şeiri üslubunda yazmışdır. Şair-tədqiqatçı Vaqif Aslan haqlı olaraq yazır ki, “ M.P. Vaqiflə Məhəmmədhüseyn xan Müştaq arasındakı dostluq əlaqələri ədəbiyyatımızda epistolyar janrın ən mükəmməl nümunələrinin yaranmasına səbəb olmuş, XIX əsrdə isə Q.Zakirin, M.F.Axundzadənin yaradıcılığında davam etdirilmişdir”**[18,s.88.].** Tədqiqatçıların verdiyi mükəmməl məlumatdan bilirik ki, M.P. Vaqif təkcə şair kimi deyil, münəccim, memar və gözəl sərkərdə - atıcı, tüfəng ustası kimi də tanınmışdır. Onun Şəkidə olarkən dostu Müştaqdan tüfəng istəməsi də bu istedadın göstəricisidir. Nəticədə Müştaq dostuna ( M.P. Vaqif nəzərdə tutulur – T.A) üstündə bir covlan at olmaqla qızıl suyuna çəkilmiş tüfəng göndərmişdir. Əvəzində Vaqifin dostuna təşəkkürü “Dəhrdə oldu mənə dildari dilbər bir tüfəng” misrası ilə başlanan müxəmməslə bildirilmişdir**[15,s.180]**Hüseyn xan Müştağın xalq şeiri üslubunda yazmış olduğu əsərlərində gözəl lirik ovqat, tərbiyəedici nəsihətamiz ruhvardır. Şairin “Var”**[9;10;11;]**rədifli qoşması diqqətəlayiqdir:

Əvvəl gündən lənət olsun şeytana
Ondan ötrü fitnəsi var, feli var.
Mən də bitab oldum o dəmdən bəri,
Ol səbəbdən böyük kiçik yolu var**[11,s.282 ] –**

yazaraq insanı şeytan əməlinə uymamağa, fitnə-fəsaddan uzaq olmağa, böyük-kiçik yoluna əməl etməyə çağırmışdır.

Salman Mümtaz Müştaqın öldürülməsinin el kədərinə çevrilməsilə bağlı çox doğru olaraq yazırki, “ömründə kimsəni tərif, tövsif etməyən Molla Vəli Vidadi” bu müsibəti öz “Müsibətnamə”sində ürək ağrısı ilə təsvir etmişdir”**[10, s.101].** Böyük bir tarixi əsər təsiri bağışlayan Molla Vəli Vidadinin “Müsibətnamə” əsərinin sonuncu bəndində Müştağın ölümü xalq içərisindən çıxan, xəlqi olan, heç kəsə boyun əyməyən, hökmdarların sarayını səfalətxanə bilib xalq içərisində yaşamağı üstün tutan Molla Vəli Vidadinin Müştağa, onun mərdliyinə, insanlığına olan sonsuz sevgisindən doğan bir acı göz yaşı kimi qarşılanır:

Belədir dövran işi, hər gündə bir al eyləmiş,
Aqili nadan ilə pəjmürdə əhval eyləmiş,
Üz verib namərdə, hər dəm mərdi pamal eyləmiş,
Ey Vidadi, gəl ki, bu dövran məni lal eyləmiş,
Gör nələr qıldı fələk Müştaqi tək insanə bax**[16,s.80;10,s.101-105].**

Bu əsəri çox yüksək qiymətləndirən Salman Mümtaz yazır ki, “Müsibətnamə” nəzərimdə Müştaqın qiymətini daha da artırır. ”**[10 , s.101].**

Məhəmmədhüseyn xan Muştaqa ümumxalq sevgisinin izləri Şəkinin inzibati-ərazi sistemində, məhəlli quruluşunda da qalmışdır. Son on üç ilin Şəki ilə bağlı ən qiymətli nəşrlərindən olan, AMEA –nın Şəki Regional Elmi Mərkəzinin “Folklorşünaslıq və el sənətləri” şöbəsinin əməkdaşlarının şəhərin Yuxarıbaş ərazisindən soy, ləqəb və məhəlli xüsusiyyətlərə dair toplanmış olduqları materialları özündə əks etdirən “Şəkidə məhəllə adları, soylar və ləqəblər: İ Kitab ( Qoruq ərazisi)” adlı topluda yer almış “Xan gülüstanı” adlı yazı diqqətçəkicidir. Yazıdan oxuyuruq: “ ...Tarixdən üzü bəri gözəllik, məhəbbət, sədaqət, sülh, əhvali-ruhiyyə rəmzi kimi tanınan güzülgül saray bəzəmələrində, sənətkarların əl işlərində, şairlərin vəsflərində sevgi, duyğu hisslərinin anlamında əsas vasitə olmuşdur. Bu baxımdan 1762-ci ildə Şəki hakimi Hüseyn xan Müştaq tərəfindən tikilən əzəmətli Şəki Xan Sarayının divar rəsmlərində qızılgül təsvirləri əbədiləşdirilib. Hüseyn xan Müştaq qurub-yaradan, gözəl zövqlü, incə düşüncəyə qadir, şeirin, sənətin vurğunu bir insan olmuşdur. Üzü qibləyə tikilən əsrarəngiz sarayın dörd bir tərəfində qızılgül bağları saldırmış,ətrafı cənnətə döndərmişdir. Xanın sevimli qızılgül yetişdirilən gülüstanlarından ən böyüyü saraya yaxın yerdə Qurcana çayın sol yarğanı üstdə yerləşən qədim məhəllədə - Güləhlidə salınmışdır. Gül yetişdirənlərin özləri də bu məhəllədə yaşayıb yaratmışlar.Ona görə də buraya Güləhli vəya Xan Gülüstanı məhəlləsi də deyərdilər. Xan onların ibadəti üçün həmin məhəllədə məscid də tikdirmişdir”**[14, s.107].**

Ev-eşiyi ilə bərabər əsərlərinin böyük bir hissəsi də məhv olub itib-batmış, Salman Mümtazın təsvirinə görə, “Məhəmmədhüseyn xanın qəbri özünün tikdirdiyi birinci Cümə Məscidinin mehrabı içərisindədir”**[ 10, s.101].**

## Ədəbiyyat:


1. Bakıxanov. A. Gülüstani – İrəm. Bakı: “Xatun Plyus”, 2010, 300 s.
2.Dadaşzadə. A. Vaqif: Həyat və yaradıcılığı. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1966, 189 s.

3. Elnarə Günəş. Şəki Xan Sarayının fəlsəfəsi.zim.az/region/2988-ki-xan-saraynın-fisfsi.html
4. Hacı Seyid Əbdülhəmid. Şəki xanları və onların nəsilləri. Bakı, 1993, 32 s
5. İsmayılov. M. Bağırova M. Şəki xanlığı. Bakı: Azərnəşr,1997, 77s.
6. İsmayılov. M. Şəki : tarixi – oçerk. Bakı: Azərnəşr, 1982, 152 s.
7. Qutqaşınlı. İ. Əsərləri. Bakı: "Lider" nəşriyyatı, 2005, 224 s.
8. Mehparə. Şəki Xan Sarayı: rəvayət. http:// medeniyyet.az
9.Mümtaz Salman. Azərbaycan ədəbiyyatı. Məhəmmədhüseyn xan Müştaq. Bakı, 1925
10. Mümtaz Salman. Azərbaycan ədəbiyyatı qaynaqları. Bakı: Avrasiya – Press,2006, 440 s.
11. Mümtaz Salman. El şairləri. Bakı, 1935
12. Süleymanova A, Bağırova T. Ədəbiyyat: Ümumtəhsil məktəblərinin 6-cı sinifləri üçün dərslik,Bakı:"Təhsil", 2013, 239 s.
13. Şəki xanlığının tarixindən. Bakı: "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 1993,32 s.
14.Şəkidə məhəllə adları, soylar və ləqəblər/tərib edəni: Z.M. Əlizadə,S. Bəharəddinqızı: I Kitab. (Qoruqərazisi). Bakı: Nafta – Press, 2004,346 s.
15. Vaqif.M.P. Əsərləri. Bakı: "Şərq-Qərb", 2004, 264 s. 16.Vidadi. M.V. Əsərləri. Bakı:"Öndər nəşriyyatı", 2004,128 s.
17. Vaqif Aslan. Hüseyn xan Müştaq: (Xronika). Bakı: "Orxan" NPM, 2015, 320 s.
18. Vaqif Aslan. Seçilmiş əsərləri. 4 Cilddə. Cild.4. Bakı: "Təhsil",NPM, 540 s.

**T**

**арана АбдуллаеваГусейн хан Муштаг: строгий правитель или сторонник искусства**

**Резюме**

В данной статье автор анализирует азербайджанскую национальную историю средних веков. В этом деле исследователь операется не только на исторические источники и летописи, но и приводит примеры из литературных достояний дошедших до наших времен. Автор прослеживает годы правления шекинского хана в Азербайджане. К тому же, здесь приводятся существенные примеры того, что Гусейн хан был не только строгим правителем в политической деятельности, нои проявлял особый интерес к миру искусства.

**Ключевые слова:** феодальный строй, шекинский хан, поэт, поэтический меджлис, сторонник искусства, настенные рисунки, справедливый хан, Нухинская крепость, покушение, национально-духовная ценность, Салман Мумтаз, М.В. Видади, поэма «Мусибатнаме», мухаммас.

**T**
**a**
**r**

ana Abdullaeva

## Hussein Khan Mushtag: a strict ruler or supporter of art

**Summary**

In this article, the author analyzes the Azerbaijani national history of the middle ages. In this case, the researcher does not only work on historical sources and chronicles, but also cites examples from literary treasures that have been survived to our times. The author traces the years of Sheki Khan`s rule in Azerbaijan. In addition, here are significant examples of the fact that Hussein Khan was not only a strict ruler in political activity, but also showed a special interest in the world of art.

**Keywords:** feudal system, Sheki khan, poet, poetic Majlis, art supporter, wall paintings, fair khan, Nukhin fortress, attempt, national-spiritual value, Salman Mumtaz, M.V. Vidadi, the poem "Musibatnam", muhammas.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14.11.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 21.11.2017Məqalənin çapa qəbul olunma tarixi: 12.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova**
**ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**